Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi

Dağlıq Qarabağ münaqişəsinin hərbi müstəvidə həlli halında Azərbaycanın işğalçı Ermənistana kifayət qədər sarsıdıcı zərbələr vuracağına dair beynəlxalq müstəvidə də artıq dəfələrlə xəbərdarlıq edilib. Növbəti buna bənzər xəbərdarlıq, artıq məlum olduğu kimi, nüfuzlu "Global Firepower" hərbi-analitika təşkilatı tərəfindən gəlib.

Azərbaycanın hərbi gücünü Ermənistanla müqayisə edən yeni beynəlxalq hesabat...

4 sualtı qayıq... Ermənistanda isə...

Xatırladaq ki, "Global Firepower" 2020-ci ildə dünyanın ən yaxşı ordularının reytinqini açıqlayıb. Azərbaycan Silahlı Qüvvələri regionun ən qüdrətli ordusu reytinqini qoruyub saxlayıb və cədvəldə 138 ölkənin ordusu arasında 64-cü olub. Qonşu Gürcüstan ordusu 89-cu, Ermənistan isə 111-ci yerdədir. Beləliklə, ordumuz düşmən silahlı qüvvələrindən 47 pillə yüksəkdə qərarlaşıb. Azərbaycan ordusu təkcə Cənubi Qafqazda deyil, həmçinin MDB məkanında lider mövqelərdən birini tutur. "2020: hərbi güc reytinqi" adlı sənəd ümumilikdə, qeyd olunduğu kimi, 138 ölkənin Silahlı Qüvvələrini əhatə edib. Reytinq hazırlanan zaman ordu ilə bağlı 6 göstərici əsas götürülüb. Bunlar illik hərbi büdcə, orduda xidmət edən şəxsi heyətin, Hərbi Hava Qüvvələrinə məxsus təyyarə, pilotsuz uçan aparat və helikopterlərin, eyni zamanda qırıcı təyyarələrin, tankların sayı və hərbi donanma üzrə göstəricilərdir. "Global Firepower" şirkətinin araşdırması nəticəsində məlum olub ki, Azərbaycan ordusu Cənubi Qafqazın ən güclü silahlı qüvvəsidir. Siyahıda Gürcüstan 89-cu, Ermənistan isə 111-ci sırada qərarlaşıb. Araşdırmaya görə, Azərbaycanın hərbi büdcəsi 2 milyard 805 milyon dollardır. Ümumi hərbçi sayı 426 min nəfərdir. Onlardan 126 mini aktiv şəxsi heyətdir və hazırda hərbi xidmətdədir, 300 min nəfər isə ehtiyatdadır. Azərbaycan Hərbi Hava Qüvvələrinin balansında 29 hərbi təlim təyyarəsi, 17 qırıcı təyyarə, 88 helikopter və 17 qırıcı helikopter mövcuddur. Ölkənin quru qoşunlarında 570 tank var. Azərbaycan Hərbi Donanması 4 sualtı qayığa, 13 patrul, 7 minaaxtaran gəmiyə, 1 freqat daxil olmaqla 31 gəmiyə malikdir.

Siyahıdan məlum olur ki, işğalçı Ermənistan hərbi güc baxımından, demək olar, bütün göstəricilər üzrə Azərbaycandan geridə qalır. Araşdırmaya görə, Ermənistanın hərbi büdcəsi 1 milyard 385 milyon dollardır. Ümumi hərbçi sayı 245 min nəfərdir. Aktiv personal 45 min, ehtiyatda olanların sayı isə 200 mindir. Ermənistan Hərbi Hava Qüvvələrinin aktivində 13 hərbi təlim təyyarəsi, 9 qırıcı təyyarə, 37 helikopter və 20 qırıcı helikopter var. Quru qoşunları 110 tanka malikdir. Ermənistanda hərbi donanma mövcud deyil. Bütün bunlar Azərbaycanın hərbi cəhətdən kifayət qədər üstün mövqedə olduğunu göstərir. Digər tərəfdən, orduda nizam-intizam, döyüş qabiliyyəti baxımından da Azərbaycan kifayət qədər üstün mövqedədir. Bunu döyüş və qeyri-döyüş itkiləri də aydın təsdiq edir. Məlumat üçün bildirək ki, cari ilin yanvarında Ermənistan ordusunda dörd ölüm hadisəsi qeydə alınıb. Onlardan ikisi intihar edib, biri səhhətindəki problemlərlə əlaqədar, biri isə qəza nəticəsində ölüb. Ay ərzində səkkiz hərbçi xəsarət alıb. Xəsarət hallarının üçü avtomobil qəzası, ikisi cinayətə cəhd, biri intihara cəhd, qalanları isə digər hadisələr zamanı qeydə alınıb. Ölüm hadisələrindən ikisi, xəsarət hallarından isə üçü döyüş şəraitində olmayan odlu silahın tətbiqi nəticəsində baş verib.

Helsinki Vətəndaş Assambleyası İrəvan Ofisinin Vanadzor bölməsi hadisələrdən narahatlığını ifadə edərək bildirib ki, silahlı qüvvələrdəki hərbçilər üçün geyim və yeməyin keyfiyyəti, döyüş vəzifəsində həyat dəstəyi və təhlükəsizlik şəraitinin yaxşılaşdırılması üçün vacib tədbirlərlə yanaşı, silahlı qüvvələrdə hərbi nizam-intizama səmərəli nəzarətin təmin edilməsi, qanuni münasibətləri qorumaq, zabitlərin, sıravi və müqaviləli hərbçilərin mənəvi və psixoloji vəziyyətlərini yaxşılaşdırmaq üçün təhsil nailiyyətlərini təşviq etmək lazımdır. Ofisin Vanadzor bölməsinin illərdir bu problemləri gündəmə gətirməsinə baxmayaraq, Ermənistan Müdafiə Nazirliyi bu istiqamətdə real addım atmaq istəmir. Buna görə də hərbçilər üçün təhlükəsiz və ləyaqətli xidmətlərin təmin edilməməsinə görə birbaşa məsuliyyəti Ermənistan hakimiyyəti daşıyır. Burada onu bildirək ki, qeyd edilən məlumatlar rəsmi mənbələrdən, sosial şəbəkə istifadəçilərinin paylaşımlarından əldə edilib və yalnız Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmiş yaşayış məntəqələrimizdə yerləşdirilən qanunsuz "hərbi birləşmə"də baş verən hadisələrin xülasəsini əhatə edir. Zabitlərin özbaşınalığı, vəzifə səlahiyyətindən sui-istifadə, qeyri-döyüş şəraitində xəsarət alma, özünəqəsd, qəsdən adamöldürmə, oğurluq, hərbi xidmətdən yayıma, nizamnamədənkənar münasibətlər və digər qanunsuzluqlar səbəbindən baş verən cinayətlərin sayına görə işğal edilmiş ərazilərimizdə yerləşdirilən qanunsuz "hərbi birləşmə" rekord göstəricilərə malikdir. Belə ki, təkcə 2019-cu il ərzində qanunsuz "hərbi birləşmə" tərəfindən tabelikdə olan hərbi hissələrdə neqativ halların və cinayət hadisələrinin qarşısının alınması istiqamətində bir sıra tədbirlərin həyata keçirilməsinə baxmayaraq, heç bir müsbət nəticə əldə olunmayıb. Hadisələrin sayında azalma qeydə alınmayıb, əksinə, cinayətlər il ərzində yüksələn templə artıb. Hərbi hissələrdə baş verən cinayətlərin payına ən çox nizamnamə qaydalarının pozulması, təhqiretmə, döymə və işgəncə halları düşür. Bu tip cinayət və hadisələr, "ordu.az" portalının məlumatına əsasən, xüsusilə işğalçı ordunun 5-ci, 6-cı, 7-ci dağatıcı alaylarında və 9-cu motoatıcı alayında daha qabarıq şəkildə özünü büruzə verib. Hərbi hissəni özbaşına tərketmə və hərbi xidmətdən yayınma halları isə qanunsuz "hərbi birləşmə"nin tabeliyində olan hərbi hissələrdə 75 dəfə qeydə alınıb. Eyni zamanda, hərbi hissələrdə il ərzində Ermənistandan olan ermənilərlə Qarabağ ermənilər arasında yerlibazlıq zəminində 12 dəfə kütləvi dava qeydə alınıb. Bu səbəbdən onlarla hərbi qulluqçunun xəsarət aldığı, həmçinin cinayət məsuliyyətinə cəlb edildiyi də məlum olub. Baş vermiş hadisələrin, neqativ halların çoxluğu səbəbindən qanunsuz "hərbi birləşmə" hərbi hissələrin komandirlərini və digər şəxsləri tutduqları vəzifələrdən çıxarmaqla vəziyyəti dəyişməyə çalışıb. Lakin xidmət şəraitinin dözülməzliyi, hərbçilərə qarşı haqsızlıq, təminatın, xüsusilə tibbi təminatın həddən artıq zəif olması və digər səbəblərdən baş verən cinayətlərin ümumi fonunda əsaslı dönüş baş verməyib və müsbət nəticə əldə olunmayıb. Bütün bu neqativ halların nəticəsi olaraq daxili xidmət və döyüş növbətçiliyinin təşkili və aparılması qaydaları 21 dəfə pozulub, zabit və əsgərlər tərəfindən xidmət zamanı 7 dəfə spirtli içki, narkotik və toksiki maddələrin qəbul edilməsi halları qeydə alınıb. Hərbi qulluqçular tərəfindən 119 dəfə qəsdən və ehtiyatsızlıqdan adam öldürmə, sağlamlığa zərər yetirmə kimi cinayət hadisəsi törədilib. Hərbi intizamın aşağı olması səbəbindən qanunsuz "hərbi birləşmə" komandanlığı seksual xarakterli hərəkətlərə məcbur etmə, cinsi istismar, əxlaqsızlıq və zorlama, eləcə də yerli əhaliyə qarşı nalayiq hərəkət etmə kimi halların qarşısını almaqda da acizdir. Ötən il qanunsuz "hərbi birləşmə"nin tabeliyində olan hərbi hissələrdə rüşvət alma və vermə, vəzifə səlahiyyətlərindən sui-istifadə etmə halları 29 dəfə baş verib. 2019-cu ildə hərbi qulluqçular arasında nizamnamədənkənar münasibətlərin pozulması zəminində özünəqəsd, özünü öldürmək həddinə çatdırma və özünü öldürməyə cəhd halları da 12 dəfə olmaqla çoxluq təşkil edən cinayət hadisələrinin sırasındandır.

İşğal edilmiş ərazilərimizdə yerləşdirilən qanunsuz "hərbi birləşmə"nin hərbi hissələrində ehtiyatsızlıq nəticəsində silahdan açılan atəş, o cümlədən qumbara, mina və digər partlayıcı maddələrin partlaması nəticəsində 100-dən çox hadisə zamanı çoxlu sayda itki olub. Bundan əlavə, yanğın hadisələri və avtomobil qəzalarının çoxluğu da erməni hərbi qulluqçularının qeyri-peşəkar və məsuliyyətsiz davranışlarının göstəricisidir. Qanunsuz "hərbi birləşmə"nin hərbi hissələrində baş verən bütün bu hadisələrin və özbaşınalığın nəticəsində əsgər valideynləri bir neçə dəfə dövlət qurumlarına şikayət ünvanlayıblar. Məhz baş verən bu cinayət hadisələri səbəbindən və mövcud olan dözülməz vəziyyətə etiraz edən valideynlər öz övladlarını hərbi xidmətə, əsasən də işğal edilmiş ərazilərimizə qulluğa göndərməkdən imtina edirlər. Bəzi mənbələrin yazdığına görə, müxtəlif yollarla hərbi xidmətdən yayınanların sayı 10 min nəfərə yaxındır. Mütəmadi baş verən intizam pozuntusu hallarını, cinayət və hadisələri ört-basdır etmək və bütün hadisələrin tam nəzarətdə olmasını göstərmək məqsədilə qanunsuz "hərbi birləşmə" media nümayəndələrini özlərinin seçdiyi və bəzəkdüzək verdiyi hərbi hissələrə dəvət edir. Aparılan saxta çəkilişlərin köməyilə komandanlıq ictimaiyyətin diqqətini yayındırmağa, vəziyyətin guya yaxşı olduğunu göstərməyə, neqativ halların və cinayətlərin kütləvi olmadığını sübut etməyə çalışır. Lakin vəziyyətin qısa təhlili göstərir ki, Ermənistan hərbi rəhbərliyi dəridən-qabıqdan çıxsa da, baş verən neqativ halların qarşısını almağa, cinayət və hadisələrin sayının azalmasına nail ola bilmir. Bu da ondan irəli gəlir ki, düşmən ordusunun özü və rəhbərliyi rüşvət, korrupsiya, hərbi büdcəni talama və saxtakarlıq bataqlığına qərq olub. Bütün bunlar isə gələcəkdə də işğalçı orduda cinayətlərin yüksələn templə davam edəcəyindən xəbər verir. Cinayətkar hərbi-siyasi rejim hər vəchlə hadisələrin çoxunu erməni ictimaiyyətindən gizlətməyə çalışsa da, hərbi qulluqçuların ailə üzvləri öz dərdlərini sosial şəbəkələrdə bölüşməklə müdafiə naziri David Tonoyanın dağıdıcı fəaliyyətini ifşa edirlər. Bütün bunlar isə düşmən ordusunun durumunu aydın nümayiş etdirir. Təbii ki, belə vəziyyətdə Qarabağ münaqişəsinin hərbi həlli Ermənistan ordusunun qısa zaman kəsiyində darmadağın olması ilə nəticələnəcək.

Tahir TAĞIYEV

Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.